Unudulmaz bəstəkar

Xalqımız tarixlər boyu özünəməxsus yüksək maddi və mənəvi mədəniyyət abidələri yaratmışdır. Bədii yaradıcılığın ən müxtəlif sahələrində, o cümlədən musiqi yaradıcılığı sahəsində də qiymətli incilər yaradan xalqımız, çoxəsrlik inkişaf yolunda böyük uğurlar qazanmışdır. Qədim zamanlardan başlamış, melodiya və daim ritm zənginliyi ilə fərqlənən saysız-hesabsız mahnılar, müxtəlif rəqslər, tütəkdə ifa edilən çalğı havaları könüllərə yol tapmış, qayğı ilə nəsildən-nəsilə ötürülərək bugünümüzə gəlib çıxmışdır.

Keçmişin klassik musiqi sərvətlərinin - muğamların yaradıcıları və qoruyucuları olan sazandalar, xanəndələr yüksək sənətkarlıq məharəti ilə fərqləniblər. Onların yaradıcılığı xalqın görkəmli nümayəndələrinin poetik yaradıcılığı ilə, keçmişin böyük şairlərinin - Nizaminin, Xəqaninin, Məhsətinin, Nəsiminin, Füzulinin, Vaqifin və başqalarının irsiylə qırılmaz tellərlə bağlı olmuşdur. Bu yaradıcılıq müasir dövrdə poetik sənətin ən yaxşı nümunələri ilə də möhkəm tellərlə bağlıdır.

Taleyin hökmü ilə ömrü vaxtsız başa çatmış Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsini bitirən ilk qadın bəstəkar Fəridə Quliyevanın mahnı və poemaları, fortepiano pyesləri, müxtəlif alətlər üçün yazdığı kamera əsərləri məhz yuxarıda qeyd etdiyimiz qaynaqlardan süzülüb gəlmişdir. Hərtərəfli istedada malik olan Fəridə xanımın mənəvi dünyası, onun musiqiyə marağı, yəqin ki, anasız qəlbinin sızıltılarından bəhrələnmişdir. Bəli, insanın erkən yaşlarında istedadının üzə çıxmasına hansısa gözləmədiyi qeyri-adi bir hadisə səbəb olur. Fəridə xanım üçün bu hadisə körpə yaşında ana itirmək, ana nəvazişinə, ana qayğısına həsrətdən irəli gəlmişdir. Otuz yaşında dünyasını dəyişən ana, üç körpəni ata ümidinə qoyub getmişdir. Bütün bunlar 1930-cu il iyunun 12-də dünyaya göz açmış kiçik Fəridənin böyüyəndə məhz musiqiçi, bəstəkar olmasına stimul yaratmaya bilməzdi. Bu, kiçik Fəridənin tale yazısı idi. Baxmayaraq ki, bu yolu seçməkdə Azərbaycan Dövlət Universitetinin professoru, riyaziyyatçı, elm və texnikanın müxtəlif sahələrində dərin biliyə malik olan atası — ona mane olmağa çalışmışdı. Amma Tahir Quliyev əsl ziyalı idi. Balalarına böyük sevgisi vardı. Bu böyük ziyalının vətənpərvərliyi, xalqına bağlılığı, insanlara yaxşılıq etmək bacarığı, xeyirxahlığı onun uşaqlarının — iki qızı və bir oğlunun taleyində əsl həyat məktəbi rolunu oynamışdır. Bütün bunlara baxmayaraq, gənc musiqişünas Bülbül adına onillik musiqi məktəbinə qəbul olur. Onun bu yolda addım atmasında xalq artisti, qocaman müəllim Kövkəb xanım Səfərəliyeva mühüm rol oynamış, Fəridə xanımın bir musiqişünas kimi formalaşmasında böyük əməyi olmuşdur.

Ağır müharibə illəri, bu illərdə yeganə dayağı atasını itirməsi kiçik Fəridənin sənətə məhəbbətini sarsıtmadı. Əksinə Kövkəb xanımın, xüsusi istedada malik uşaqları ətrafına toplayıb onlara hamilik edən professor M.Şteynberq kimi adamların əhatəsində olması Fəridədə özünə inam hissini, incəsənətə olan yanğısını daha da gücləndirdi. Yeddinci sinifdə oxuyarkən dahi Üzeyir Hacıbəyovun məktəbə gəlməsi və şəxsən kiçik bəstəkarın yazdığı "Samur-Kamal" mahnısı barədə tərifli sözlər deməsi onun həyatında dönüş yaratdı, kiçik qəlbində sönməz musiqi məşəli alovlandırdı.

Orta musiqi məktəbini bitirdikdən sonra Fəridə Quliyeva Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano sinfinə qəbul olur. Burada o, tanınmış musiqiçi, pianoçu-professor Q.Q.Şamoyevin tələbəsi olmaqla yanaşı, eyni vaxtda professor Cövdət Hacıyevin bəstəkarlıq sinfində də təhsil alır.

Şərəfli bir həyat yolu keçmiş, bu yolun sevincini, qəmini, kədərini, ağrısını, acısını daim qəlbində gəzdirmiş Fəridə xanım ömrünün sonuna qədər hər iki peşəsindən yaradıcılıqla istifadə etmişdir. Bəstəkar kimi müxtəlif janrlı musiqi əsərləri bəstələmiş, pianoçu kimi çıxış etmiş, Konservatoriyanın (Musiqi Akademiyası) ümumi fortepiano kafedrasında dərs demişdir. Ürəkdən bağlandığı bu sahələrin hər birindən qəlbinin hərarətini, yüksək vətəndaşlıq qeyrətini əsirgəməyən Fəridə xanım təkcə yaratdığı musiqi əsərlərində deyil, həm də ürəklərində musiqiyə böyük məhəbbət hissi oyatdığı tələbələrinin də yaddaşında əbədi olaraq qalmışdır.

Fəridə xanım həm bəstəkar, həm pianoçu kimi böyük ifaçılıq istedadına malik olsa da, o, əsas yaradıcılığında qüvvəsini, ilk növbədə musiqi əsərləri yazmağa vermiş, janr nöqteyi-nəzərindən müxtəlif olan instrumental musiqiyə, vokal musiqisinə eyni dərəcədə diqqət yetirmiş, iri və kiçik formalarda müxtəlif əsərlər yaratmışdır.

Fəridə Quliyeva bəstəkar olaraq instrumental konsert kimi mürəkkəb janrda da istedadını sınamış, fortepiano ilə orkestr üçün konsert, skripka ilə orkestr üçün konsert yaratmışdır. Musiqi janrının dərin sirlərinə bələd olan bəstəkar fortepiano, nəfəs alətləri - fleyta, klarnet üçün də çoxlu pyes yazmış, vokal musiqisinin xüsusiyyətlərini yaxşı bildiyindən onun mahnılarında melodiya çalarları, sadəlik və forma dəqiqliyi diqqət çəkmişdir. O, vokal ansambl janrına daha tez-tez müraciət etmiş, elə buna görə də müxtəlif vokal ansamblları üçün nəzərdə tutulmuş "Üç bacı", "Çal qarmonçu" mahnıları dinləyicilər tərəfindən hərarətlə qarşılanmışdır.

Bütün bunların nəticəsi olaraq hələ ikinci kurs tələbəsi olanda Fəridənin yazdığı sonata Azərbaycan bəstəkarlarının birinci qurultayında konsert proqramına daxil edilmiş, konsertdə iştirak edən Dmitri Şostakoviç sonatanı bəyənmiş, konsertin sonunda bəstəkarla görüşüb səmimi fikirlərini ona bildirmişdir.

Azərbaycanın bəstəkar qadınları sırasında özünə layiqli yer tutan Fəridə xanım Quliyevanın zəngin yaradıcılıq yolu müasirləri tərəfindən həmişə qiymətləndirilmişdir. Mənalı ömür yolu yaşamış bəstəkar müxtəlif musiqi janrlarında, xüsusilə yaradıcılığında daha çox üstünlük verdiyi vokal janrda - romans, mahnı və balladaları ilə Azərbaycan musiqi tarixində 200-dən çox musiqi əsəri yazaraq, özünəməxsus silinməz iz qoyub getmişdir.

Kamal İBADOV,
"Respublika".